# Zəfər yolu ilə Şuşada Zəfər Qurultayı

**Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı keçirildi. Bu, tarixi hadisədir. Həmvətənlərimiz növbəti qurultayın Şuşada keçirilməsindən qürur duyurlar. Yüksək səviyyədə keçirilən bu qurultay dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımızın mütəşəkkil qüvvəyə çevrilməsində mühüm rol oynayacaqdır.**

Avropada yaşayan azərbaycanlılar Zəfər Qurultayında yüksək əhvali-ruhiyyə ilə iştirak etdilər. Bu qurultayın adı Zəfər Qurultayı kimi tarixə düşdü. Bu təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir.

Bundan sonra Azərbaycan xalqı qalib xalq kimi əbədi yaşayacaq. Bu, hamı üçün, həm Azərbaycanda yaşayanlar, həm də xarici ölkələrdə məskunlaşan azərbaycanlılar üçün böyük xoşbəxtlikdir. Bu tarixi missiyanı həyata keçirən Azərbaycanın qəhrəman övladları tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər.

Prezident İlham Əliyev Zəfər Qurultayında vurğuladı ki, 2001-ci ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayını yaxşı xatırlayıram. Qurultay ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirildi. Heydər Əliyev dərin məzmunlu çıxışında Qarabağ problemi ilə bağlı öz fikrini bildirmiş və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır.

Dünya Azərbaycanlılarının V Qurultayı böyük coşqu ilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada keçirildi. Şuşa bizi, qurultay iştirakçılarını günəşli hava ilə qarşıladı. Qurultay iştirakçısı, Avropanı təmsil edən diaspor nümayəndəsi kimi V Qurultayda Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışını həmişə xatırlayacam.



Zəfər Qurultayında ölkə başçısı qeyd etdi ki, münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz Şuşada baş verdi. Əsgərlərimiz, zabitlər sıldırım qayalara dırmaşaraq, demək olar ki, əlbəyaxa döyüşlərdə topla, tanklarla, artilleriya ilə silahlanmış faşist Ermənistan ordusunu məğlubiyyətə uğratdı.

Cəmi 44 gün ərzində 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız azad olundu. Bu, Azərbaycan ordusunun əzmi, gücü, Vətən sevgisi sayəsində baş verdi.

Qurultay iştirakçıları iki gün Şuşada oldu. Şuşaya gələn hər bir soydaşımız gördü ki, Şuşa Azərbaycan şəhəridir. İşğal dövründə Şuşa başdan-başa dağıdılmışdır. İndi isə biz Şuşada başqa mənzərənin şahidi olduq. İşğaldan sonra Şuşa bərpa olunur, burada genişmiqyaslı quruculuq işləri aparılır.

Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Şuşada keçirilən Zəfər Qurultayının böyük tarixi mənası var. Əminliklə deyə bilərəm ki, Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı Azərbaycan diasporunun təşəkkül tapmasında önəmli rol oynayacaqdır.

**Sahil QASIMOV,**
**Avropa Azərbaycanlıları Konqresinin Prezidenti,**
**3-cü dərəcəli "Vətənə xidmət" ordenli.**

Respublika .- 2022.- 26 aprel.- S.4.